

Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsinin müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

2



Milli Məclis komitələrinin birgə iclasında gələn ilin dövlət büdcəsi layihəsi müzakirə olunub

3



Azərbaycan Səhiyyə Nazirliyi nümayəndə heyətinin Kubaya səfəri

4


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 21-22 (781) 30 noyabr 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Prezident İlham Əliyev: «Bəzi ölkələrin yürütdüyü «vaksin milliyyətçiliyi» siyasətinə səssiz qalmadıq»



2

## «Heydər Əliyev və özəl tibb sektoru»

*«Heydər Əliyev İli» çərçivəsində bu mövzuda tədbir keçirilib*



5

## Səhiyyə Nazirliyində bir sıra aparıcı beynəlxalq şirkətlərlə əməkdaşlığın inkişafı müzakirə olunub



7

## Üçüncü Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları Sərgisi keçirilib



7

## Səhiyyə Nazirliyi qızılca ilə bağlı vəziyyət haqqında məlumat yayıb




6

### *Aforizm*

*Dünyada xeyir iş görməyən insan əbəs yerə yaşayır.*

*C.Fuller*

# Prezident İlham Əliyev: «Bəzi ölkələrin yürütdüyü «vaksin milliyyətçiliyi» siyasətinə səssiz qalmadıq»

**Biz bəzi ölkələrin yürütdüyü «vaksin milliyyətçiliyi» siyasətinə səssiz qalmadıq və vaksinlərin ədalətli şəkildə bölüşdürülməsini təşviq etdik. Azərbaycan humanist dəyərləri əsas götürərək, əksəriyyəti Qoşulmama Hərəkatına üzv dövlətlər olmaqla, 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım göstərdi. Bununla yanaşı, bu il Azərbaycan Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyanın fəsadlarının aradan qaldırılması məqsədilə maliyyə vəsaitinin ayrılması barədə qərar qəbul etdi.**



AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Bakıda keçirilən «Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması» mövzusunda Konfransının iştirakçılarına müraciətində yer alıb.

Dövlət başçısı həmçinin Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində də mühüm addımlar atıldığını qeyd edib.

# Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsinin müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

«Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqi və «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 avqust tarixli 2298 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsi aşağıdakı kimi müəyyən edilsin:

1.1. dərman vasitəsinin latın qrafikasında əmtəə nişanı adı;

1.2. dərman vasitəsinin ingilis dilində beynəlxalq patentləşdirilməmiş adı;

1.3. dərman vasitəsinin təsiredici maddəsinin dozası;

1.4. dərman vasitəsinin farmasevtik forması;

1.5. dərman vasitəsinin ticarət qablaşdırılması;

1.6. dərman vasitəsinin qablaşdırılma miqdarı;

1.7. dərman vasitəsinin orijinal və ya generik olması;

1.8. dərman vasitəsinin reseptlə və ya reseptsiz buraxılması;

1.9. dərman vasitəsinin qlobal identifikasiya nömrəsi (olduğu halda);

1.10. dərman vasitəsinin dövlət reyestrinə daxil edildiyi tarix və reyestr nömrəsi (olduğu halda);

1.11. dərman vasitəsinin istehsal həcmi;

1.12. dərman vasitəsinin yararlılıq müddəti;

1.13. dərman vasitəsinin istehsalçısının hüquqi şəxslərin dövlət reyestrindəki adı;

1.14. dərman vasitəsinin istehsalçısının VÖEN-i.

**2.** Azərbaycan Respublikasında istehsal olunan dərman maddələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsi aşağıdakı kimi müəyyən edilsin:

2.1. dərman maddəsinin beynəlxalq patentləşdirilməmiş adı;

2.2. dərman maddəsinin qablaşdırılması;

2.3. dərman maddəsinin yararlılıq müddəti;

2.4. dərman maddəsinin istehsal həcmi;

2.5. dərman maddəsinin istehsalçısının hüquqi şəxslərin dövlət reyestrindəki adı;

2.6. dərman maddəsinin istehsalçısının VÖEN-i.

**3.** Azərbaycan Respublikasında istehsal olunan tibb vasitələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsi aşağıdakı kimi müəyyən edilsin:

3.1. tibb vasitəsinin əmtəə nişanının adı;

3.2. tibb vasitəsinin risk dərəcəsi;

3.3. tibb vasitəsinin növü və qablaşdırılması;

3.4. tibb vasitəsinin istifadə forması;

3.5. tibb vasitəsinin tərkibində dərman vasitəsi olduqda bu dərman vasitəsinin təsiredici maddəsi və dozası barədə məlumatlar;

3.6. tibb vasitəsinin yararlılıq müddəti;

3.7. tibb vasitəsinin istehsal həcmi;

3.8. tibb vasitəsinin istehsalçısının hüquqi şəxslərin dövlət reyestrindəki adı;

3.9. tibb vasitəsinin istehsalçısının VÖEN-i.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri,*
*27 noyabr 2023-cü il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarı ilə təsdiq edilmiş «Milli yığma komandaların maddi-texniki, elmi-metodiki, tibbi-bioloji, tibbi və antidopinq təminatı Qaydası»nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

«Azərbaycan Respublikası Prezidentinin «Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2005-ci il 18 iyul tarixli 263 nömrəli, «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2005-ci il 9 avqust tarixli 274 nömrəli, «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə» 2006-cı il 25 may tarixli 413 nömrəli, «Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2007-ci il 3 iyul tarixli 606 nömrəli, «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2009-cu il 27 avqust tarixli 147 nömrəli, «Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» 2010-cu il 4 iyun tarixli 276 nömrəli, «Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə» 2011-ci il 15 fevral tarixli 382 nömrəli, «İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə» 2011-ci il 20 aprel tarixli 414 nömrəli və «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə» 2012-ci il 9 aprel tarixli 606 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2227 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1073; 2010, № 4, maddə 354; 2014, № 9, maddə 1137; 2016, № 9, maddə 1585; 2017, № 3, maddə 495, № 4, maddə 643; 2020, № 10, maddə 1294; 2021, № 9, maddə 1087; 2022, № 8, maddə 1023; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 sentyabr tarixli 302 nömrəli Qərarı) ilə təsdiq edilmiş «Milli yığma komandaların maddi-texniki, elmi-metodiki, tibbi-bioloji, tibbi və antidopinq təminatı Qaydası»nın 4.6-cı bəndində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri,*
*4 noyabr 2023-cü il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 noyabr tarixli 447 nömrəli Qərarı ilə təsdiq edilmiş «Tibb müəssisələrinin akkreditasiyası Qaydası»nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI*

«Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1997-ci il 25 iyul tarixli 622 nömrəli, «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 2003-cü il 5 iyun tarixli 878 nömrəli, «Əhalinin sağ-




lamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında» 2013-cü il 25 noyabr tarixli 38 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2224 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 noyabr tarixli 447 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1391) ilə təsdiq edilmiş «Tibb müəssisələrinin akkreditasiyası Qaydası»nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.3-cü bənddən «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər tibb müəssisələrinə münasibətdə isə» sözləri çıxarılsın.

**2.** 1.4-cü bənddən «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, digər tibb müəssisələrinə münasibətdə isə» sözləri çıxarılsın.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 7 noyabr 2023-cü il*

# Milli Məclis komitələrinin birgə iclasında gələn ilin dövlət büdcəsi layihəsi müzakirə olunub



**Milli Məclisin Səhiyyə, İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri və Mədəniyyət komitələrinin birgə iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan **Milli Məclisin sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli** bildirib ki, birgə iclasın gündəliyinə «Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) daxil edilib. O, qalib dövlətin büdcəsini müzakirə etməyin çox şərəfli olduğunu vurğulayıb.

Sonra iclasda çıxış edən **maliyyə naziri Samir Şərifov** bildirib ki, 2024-cü ilin dövlət büdcəsi layihəsi regionda yaranan yeni reallıqlar nəzərə alınmaqla, güclü milli iqtisadi resurslara söykənərək, Azərbaycanın gələcək sosial-iqtisadi inkişafı ilə bağlı mühüm əhəmiyyətə malik tədbirlərin maliyyələşdirilməsi üçün zəmin yaradır. Növbəti ilin dövlət büdcəsində ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, azad edilmiş ərazilərimizə Böyük qayıdışa dair Birinci Dövlət Proqramında müəyyən edilmiş mühüm tədbirlərin icrası üçün maliyyə təminatının yaradılması əsas prioritet xərc istiqamətləri kimi nəzərdə tutulub. Bu prioritet istiqamətlər, həmçinin digər vacib məsələlər, o cümlədən əhalinin sosial müdafiəsi, təhsil sahəsində islahatların davam etdirilməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, səhiyyə sahəsində islahatların aparılması, sahibkarlığa dəstək tədbirləri, səfərbərlik və fövqəladə ehtiyatların formalaşması, dövlət investisiya proqramının maliyyələşdirilməsi üçün tələb olunan vəsaitlərin ayrılması da diqqətdə saxlanılıb.

Nazir qeyd edib ki, 2024-cü ilin dövlət və icmal büdcələrinin tərtibində İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış ölkənin sosial-iqtisadi inkişafına dair proqnoz göstəriciləri əsas götürülüb. Orta müddətli dövr üzrə büdcə vergi siyasətinin formalaşdırılmasında qlobal və regional geosiyasi gərginlik və digər bir sıra xarici və daxili faktorlar nəzərə alınıb.

Samir Şərifov bildirib ki, növbəti il və sonrakı 3 il üzrə qeyd olunan çağırışlar, daxili və xarici mühit faktorları nəzərə alınmaqla, 2024-cü ilin dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat səviyyəsində nəzərdə tutulur, xərcləri isə 36 milyard 763 milyon manat həcmində təklif olunur.

O, qeyd edib ki, 2024-cü ilin gəlirləri 2023-cü il üçün təsdiq olunmuş gəlirlər proqnozu ilə müqayisədə 283 milyon və ya 0,8 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 3 milyard 493 milyon manat və ya 11,4 faiz çox olacaq.

Samir Şərifov bildirib ki, 2024-cü ildə dövlət büdcəsi xərclərinin 42,9 faizi, onun cari xərclərinin isə 70 faizi və ya 15 milyard 773 milyon manatı sosialyönümlü xərclərin maliyyələşdirilməsinə istifadə olunacaq. Cari ilin göstəriciləri ilə müqayisədə bu, 1 milyard 35 milyon manat və ya 7 faiz çoxdur. O, həmçinin dövlət büdcəsində təhsil xərclərinə 4 milyard 550 milyon, səhiyyə xərclərinə 3 milyard 307 milyon, mədəniyyət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı üçün 575 milyon manat vəsaitin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Maliyyə naziri 2024-cü il üçün icmal büdcənin əsas göstəriciləri ilə bağlı bildirib ki, icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır.

Sonra **Hesablama Palatasının sədri Vüqar Gülməmmədov** 2024-cü ilin dövlət büdcəsinin layihəsi ilə bağlı palatanın rəyini açıqlayıb. Palata sədri 2024-cü ilin dövlət büdcəsinin layihəsinin və bu layihə ilə birlikdə təqdim olunan sənədlərin «Büdcə sistemi haqqında» Qanunun tələblərinə uyğun hazırlandığını deyib, bu sənədlərdə tətbiq edilən yeniliklərdən, büdcə sənədləşməsinin keyfiyyətinin artırılması istiqamətində atılan addımlardan danışıb, palatanın mövqeyini diqqətə çatdırıb.

Sonra çıxış edən parlamentin **Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** bildirib ki, 2024-cü ilin büdcəsi də sosialyönümlü büdcədir: «Büdcəmizdə sosial xərclərin xüsusi çəkisinin 43 faizə yüksəlməsi son dərəcə təqdirəlayiqdir. Bu, Prezident İlham Əliyevin əhalinin sosial rifahının yüksəlməsinə göstərdiyi böyük qayğının nəticəsidir. Sosial sahələrin, o cümlədən səhiyyə sisteminin maliyyələşməsində artım var”. O, vəsaitin artması hesabına ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yüksələcəyinə əminliyini bildirib.

Komitə sədri nəzərə çatdırıb ki, İcbari Tibbi Sığorta Fondunun gəlirlərində də ciddi artım müşahidə olunur. Son illərdə ölkəmizdə icbari tibbi sığorta uğurla həyata keçirilir. Demək olar ki, icbari tibbi sığortanın xidmətlər zərfi günbəgün genişləndirilir və əhalinin icbari tibbi sığorta ilə bağlı məmnunluğu getdikcə artır. O, qeyd edib ki, ölkəmizdə icbari tibbi sığorta sisteminə keçid son illər səhiyyəmizin ən böyük uğurlarından biridir.

Sonra çıxış edən **Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev** və **Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa** layihə ilə bağlı fikirlərini bölüşüb, təkliflərini səsləndiriblər.

İclasda 2024-cü ilin dövlət büdcəsi layihəsi ətrafında müzakirələr aparılıb. Müzakirələrdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, deputatlardan Rəşad Mahmudov, Azay Quliyev, Azər Badamov, Aqiyə Naxçıvanlı, Jalə Əliyeva, Etibar Əliyev, Ceyhun Məmmədov, Soltan Məmmədov, Tamam Cəfərova, Sahib Alıyev 2024-cü ilin dövlət büdcəsinin layihəsini yüksək qiymətləndiriblər, bir sıra qeyd və təkliflərini veriblər.

Müzakirələrin sonunda «Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında» qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

İclasda Milli Məclisin deputatları, Maliyyə, İqtisadiyyat, Səhiyyə, Elm və təhsil, Mədəniyyət nazirliklərinin nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

# «Ailə sağlamlığı və dəyərləri qanunvericilik aspektində»

## *Milli Məclisdə bu mövzuda ictimai dinləmə keçirilib*

**Milli Məclisin Səhiyyə və Ailə, qadın və uşaq məsələləri komitələrində «Ailə sağlamlığı və dəyərləri qanunvericilik aspektində» mövzusunda birgə ictimai dinləmə keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirildiyinə görə, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova müzakirəyə çıxarılan mövzunun vacibliyindən danışıb, ailənin həm şəxsiyyət, həm də cəmiyyət üçün böyük əhəmiyyətə malik ümumbəşəri dəyər olduğunu qeyd edib. O, ailə təsisatını sosial, mədəni, iqtisadi və siyasi dəyişiklikləri əks etdirən dinamik sosial qurum kimi dəyərləndirib. Hədə qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyini qeyd edən komitə sədri Ailə Məcəlləsinə edilən dəyişiklikləri, qəbul olunan digər qanunvericilik aktlarını diqqətə çatdırıb.

İctimai dinləmədə səhiyyə nazirinin müavini İlqar Qasımov Səhiyyə Nazirliyinin ana ölümü ilə və ölümlə nəticələnməyən ağırlaşmalarla bağlı fəaliyyəti barədə danışıb. O bildirib ki, regionlarda selektiv abortlarla bağlı maarifləndirmə işləri aparılır və görülən işlərin müsbət dinamikası müşahidə olunmaqdadır.

Tədbirdə həmçinin elm və təhsil nazirinin müavini Firudin Qurbanov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova mövzunun aktuallıq kəsb edən müxtəlif aspektlərindən danışıblar.




Hicran Hüseynova Ulu Öndər Heydər Əliyevin cəmiyyətin inkişafında ailənin, ailə münasibətlərinin rolunu yüksək qiymətləndirdiyini bildirib. Ailə Məcəlləsinin qəbul edilməsini bu sahədə önəmli addım adlandıran komitə sədri ailələrin sağlam mühitinin təşkili, ailə üzvlərinin hüquqlarının qorunması istiqamətində qanunvericilik bazasının davamlı olaraq təkmilləşdirildiyini deyib.

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov dinləmədə müzakirə olunan məsələnin aktuallığını vurğulayıb, ailə dəyərlərinin təbliği, sağlam ailə mühitinin formalaşdırılması, milli-mənəvi dəyərlərin qorunmasının vacibliyindən danışıb. Komitə sədri ölkə Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahəyə daim diqqət və qayğı ilə yanaşdıqlarını qeyd edib, dövlət başçısı tərəfindən ana və uşaqların hüquqlarının təmin edilməsi, onların sağlamlığının qorunması ilə bağlı bir çox sənədlər imzalandığını xatırladıb. O, Milli Məclisdə də bu sahənin qanunvericilik bazasının daim təkmilləşdirildiyini söyləyib.

Əhliman Əmiraslanov çıxışında ölkədə ana və uşaq ölümü ilə bağlı vəziyyətdən, bu problemin aradan qaldırılması istiqamətində görülən işlərdən danışıb. O, səhiyyə qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının yaxşılaşdırılması, mütəxəssislərin hazırlanması istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən bəhs edib. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyini qeyd edən komitə sədri Ailə Məcəlləsinə edilən dəyişiklikləri, qəbul olunan digər qanunvericilik aktlarını diqqətə çatdırıb.

Müzakirələrdə deputatlar Kamilə Əliyeva, Sədaqət Vəliyeva, Müşfiq Məmmədli, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi İmran Əliyev, Ədliyyə Nazirliyinin baş məsləhətçisi Aygün Şahbanova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taliyə İbrahimova çıxış ediblər. Ailə təsisatının möhkəmləndirilməsi, erkən nikahların qarşısının alınması, qadın və uşaqların sağlamlığının qorunması, ailələrin sosial rifahının yüksəldilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Çıxışlarda bu gün ölkəmizdə ailə siyasəti sahəsində möhkəm qanunvericilik bazasının olduğu bildirilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova tədbirə yekun vuraraq, məsələnin vacibliyini bir daha qeyd edib və səsləndirilən təkliflərə münasibət bildirib.

İctimai dinləmədə Bakı şəhər Baş Səhiyyə Mərkəzinin direktoru Elçin Əmirov, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, aidiyyəti qurumların nümayəndələri, Qeyri-Hökumət Təşkilatlarının təmsilçiləri və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan Səhiyyə Nazirliyi nümayəndə heyətinin Kubaya səfəri



Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti Kuba Respublikasında səfərdə olub.

Səfər çərçivəsində nümayəndə heyətini Kuba Respublikasının Baş naziri Manuel Marrero Kruz qəbul edib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Kuba Respublikasının Baş naziri Azərbaycan və Kubanın tarixi milli liderləri arasındakı münasibətlərin xalqlar arasındakı əlaqələrin səviyyəsinə əhəmiyyətli təsirini qeyd edib və bundan məmnunluğunu bildirib.

Baş nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Qoşulmama Hərəkatının beynəlxalq arenadakı nüfuzunun yüksəldiyini və aparıcı siyasi qüvvəyə malik təşkilata çevrildiyini xüsusilə vurğulayıb.

Manuel Marrero Kruz son dövrlərdə ölkələrimiz arasındakı təmasların artdığını və müxtəlif sahələrdə birgə əməkdaşlıq üçün geniş perspektivlərin olduğunu qeyd edib.

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev səmimi qəbul və qonaqpərvərliyə görə Kuba Respublikasının Baş naziri Manuel Marrero Kruza təşəkkürlərini bildirib. Nazir bu səfərin ölkə rəhbərləri arasındakı münasibətlərin məntiqi nəticəsi olduğunu qeyd edib.

### Azərbaycan və Kuba səhiyyə nazirlikləri arasında Anlaşma Memorandumu imzalanıb

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyətinin Kuba Respublikasına səfəri çərçivəsində Azərbaycan və Kuba arasında səhiyyə sektorunda əməkdaşlıq, birgə təşəbbüslər, mütərəqqi texnologiyaların inkişafının və tətbiqinin genişləndirilməsi üzrə əməkdaşlığı nəzərdə tutan «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Kuba Respublikasının İctimai Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu» imzalanıb.

Sənədi Azərbaycanın səhiyyə naziri Teymur Musayev və Kubanın ictimai səhiyyə naziri Xose Anxel Portal Miranda imzalayıblar.

Anlaşma Memorandumunun məqsədi hər iki ölkənin səhiyyə sistemlərinin gücləndirilməsi və institusional çərçivənin genişləndirilməsi, əhalinin sağlamlığının inkişafına töhfə verilməsi, eyni zamanda, əməkdaşlıq proqramlarının həyata keçirilməsidir.

Memorandumda akademik və elmi mübadilə, əczaçılıq və biotexnologiyalar sahəsində birgə fəaliyyət, diplomdan sonrakı təlimlər, tibbi turizm əsas əməkdaşlıq istiqamətləri olaraq müəyyən edilib. Eyni zamanda, sənəd yoluxucu və xroniki qeyri-yoluxucu xəstəliklər, o cümlədən İİV/QİÇS, xərçəng, şəkərli diabet, cərrahiyyə və tibbin yüksək dəqiqlik tələb edən istiqamətləri üzrə məlumat mübadiləsini özündə ehtiva edir.

Memorandumda birgə konfransların təşkili, səhiyyə mütəxəssislərinin təlimlərinin keçirilməsi də nəzərdə tutulub.

Daha sonra səhiyyə nazirliklərinin nümayəndə heyətlərinin iştirakı ilə ikitərəfli görüş keçirilib.

Sənədin əhəmiyyətini vurğulayan Teymur Musayev və Xose Anxel Portal Miranda Memorandumun ölkələr arasında səhiyyənin inkişafı sahəsində ikitərəfli əlaqələrin gücləndirilməsi, konkret imkanlardan yararlanması və tibb elminin birgə inkişaf potensiallarının artırılmasında mühüm rol oynayacağını qeyd ediblər.

Görüşdə həmçinin Memorandumda nəzərdə tutulan əməkdaşlıq sahələri üzrə gələcək fəaliyyətlərə dair müzakirələr aparılıb.

### Azərbaycan səhiyyə naziri Kubanın tibb və əczaçılıq müəssisələrində olub

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nümayəndə heyəti ilk olaraq Kuba səhiyyə sisteminin aparıcı müəssisəsi olan «Hermanos Ameijeiras» xəstəxanasının fəaliyyəti ilə tanış olub. Görüş zamanı xəstəxananın 40 ildən artıq müddətdə əhaliyə yüksək keyfiyyətli tibbi yardım göstərdiyinə dair məlumat verilib. Tibb müəssisəsi həmçinin həkimlər və orta tibb işçiləri üçün klinik baza rolunu oynayır. Xəstəxana digər elmi institutlarla əlaqəli şəkildə klinik sınaqlar və tədqiqatlar aparır.

Kuba Respublikasının ilkin səhiyyə sistemi ilə tanışlıq məqsədilə «Cosme Ordonez Carceller» tədris poliklinikasına səfər edilib. Poliklinikada göstərilən tibbi xidmətlər, aparılan tədqiqat işləri və yerli icmalarda epidemioloji nəzarətin təşkilinə dair məlumatlar paylaşılıb.

Daha sonra Dərman Vasitələri və Tibbi Avadanlıqlar üzrə Tənzimləyici Orqanda keçirilən görüşdə dərman vasitələri, tibbi avadanlıqların qeydiyyatı, kliniki sınaqlar, farmakonəzarət tədbirləri barədə məlumat verilib.

«BioCubaFarma» biotexnologiya şirkətində istehsal olunan innovativ dərman vasitələrinə və onların müxtəlif ölkələrdə qeydiyyatı və istifadəsinə dair ətraflı təqdimat edilib.

Səfərin sonunda Havana Tibb Elmləri Universitetində keçirilən görüşdə tibb təhsili sisteminin təşkili, akademik heyət və tələbə mübadiləsi, tibb təhsili müəssisələri arasında əməkdaşlığa dair müzakirələr aparılıb.

# «Heydər Əliyev və özəl tibb sektoru»

## *«Heydər Əliyev İli» çərçivəsində bu mövzuda tədbir keçirilib*

**Səhiyyə Nazirliyinin və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) və «Özəl Tibb Müəssisələri Assosiasiyası» İctimai Birliyinin dəstəyi ilə «Bakı KOB evi»ndə «Heydər Əliyev və özəl tibb sektoru» mövzusunda tədbir və «Özəl Tibb Müəssisələri Assosiasiyası» ilə görüş keçirilib. Tədbir Azərbaycanda sahibkarlığın inkişafında, o cümlədən özəl tibb biznesinin formalaşmasında müstəsna rolu olan Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə ölkəmizdə elan edilmiş «Heydər Əliyev İli» çərçivəsində təşkil olunub.**



Səhiyyə Nazirliyi mətbiat xidmətinin verdiyi məlumata görə, tədbirdən əvvəl səhiyyə naziri Teymur Musayev «Bakı KOB evi»nin fəaliyyəti və burada yaradılan şəraitlə tanış olub.

Tədbirdə giriş sözü ilə çıxış edən **səhiyyə naziri Teymur Musayev** vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatının bir çox sahələri kimi, səhiyyənin də inkişaf tarixini yazıb: «Ulu Öndər müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə daim özəl tibb fəaliyyətinə dəstək verib. 1999-cu il dekabrın 30-da qəbul olunan «Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu bunun ən bariz nümunəsidir. Qanun özəl tibb fəaliyyətinin subyektləri arasında münasibətləri tənzimləyir, onların hüquq və vəzifələrini, bu fəaliyyətin təşkilati-hüquqi əsaslarını müəyyən edir».

Nazir qeyd edib ki, hazırda Azərbaycanda özəl səhiyyə sektorunda 1400-ə yaxın biznes subyekti fəaliyyət göstərir, bunlardan 1274-ü ambulator, 110-u stasionar tibbi xidmət təminatçısıdır: «Səhiyyə Nazirliyi həm dövlət tibb müəssisələrində, həm də özəl müəssisələrdə çalışan tibb işçilərinin fəaliyyətini dəstəkləyir və yüksək qiymətləndirir».

Prezident İlham Əliyev tərəfindən sahibkarlıq sahəsinə verilən dövlət dəstəyi nəticəsində özəl tibb müəssisələrinin, özəl tibbi praktika ilə məşğul olan subyektlərin sayının artdığını vurğulayan Teymur Musayev bildirib: «2022-ci ilin dekabrında qəbul olunan «Dövlət - özəl tərəfdaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu səhiyyə sisteminin iştirakçıları arasında qarşılıqlı səmərəli fəaliyyət üçün geniş imkanlar açır. Ölkə rəhbərliyi tərəfindən insan kapitalı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində tibb müəssisələri müxtəlif ixtisaslı tibb mütəxəssisləri ilə komplektləşdirilib. Özəl sektora dövlət dəstəyi sahibkarlıq subyektlərinin sayının artmasına səbəb olmaqla yanaşı, bu sahədə nəzarəti də şərtləndirir».

Nazir özəl tibb müəssisələrini vahid platformada birləşdirərək, fəaliyyətləri ilə bağlı yaranan müxtəlif məsələlərin aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına vaxtında və düzgün çatdırılmasında «Özəl Tibb Müəssisələri Assosiasiyası»nın təsis edilməsini vacib addım kimi qiymətləndirib.

**KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov** agentliyin dövlət - özəl dialoqunun inkişafına dəstəyi, biznes subyektlərinin çətinliklərinin və təkliflərinin öyrənilməsi üçün mütəmadi olaraq təşkil olunan görüşlər və ictimai müzakirələr, sahibkarlara dövlət və özəl qurumlar tərəfindən göstərilən xidmətlərin vahid məkanda — KOB evlərində təqdim edilməsi barədə məlumat verib.

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev** agentliyin tibbi fəaliyyətlə məşğul olan sahibkarlıq subyektləri ilə əməkdaşlığının ildən-ilə genişləndirildiyini vurğulayıb. Onun sözlərinə görə, icbari tibbi sığorta çərçivəsində özəl xəstəxanalarda dövlət tibb müəssisələrində aparılması mümkün olmayan, habelə xüsusi tibbi təchizat və təminat tələb edən əməliyyat və xidmətlər göstərilir.

**ASK-nin prezidenti Məmməd Musayev** öz çıxışında vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda səhiyyə sahəsində həyata keçirdiyi islahatlar çərçivəsində ən mühüm xidmətlərindən biri də özəl səhiyyə sisteminin tətbiqi olub. Onun sözlərinə görə, Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev ölkəmizdə səhiyyə sisteminin inkişafına xüsusi diqqət yetirir, eyni zamanda, rəqabətə davamlı özəl tibb müəssisələrinin yaradılmasına böyük töhfə verir.

**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov** qeyd edib ki, ölkəmizdə səhiyyə sahəsində aparılan genişmiqyaslı islahatlar, eyni zamanda, özəl və dövlət tibb müəssisələri arasında sağlam rəqabətin yaranması sayəsində əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyəti yüksəlib, bu isə səhiyyəmizin gələcək inkişafı üçün təkan olub.

Tədbirdə **Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva** da fikirlərini bölüşüb.

**«Özəl Tibb Müəssisələri Assosiasiyası» İctimai Birliyinin İdarə Heyətinin sədri Günel Əliyeva** qurumun fəaliyyəti barədə məlumat verib: «Assosiasiya tibbi xidmət imkanlarının artırılması və səmərəli təşkili, bu sahədə dayanıqlı iqtisadi inkişafa nail olunması, dövlət və özəl sektorda fəaliyyət göstərən KOB subyektləri arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsi məqsədilə yaradılıb».

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli səhiyyəmizin inkişafına göstərdiyi diqqət və qayğıya, bu sahədəki fəaliyyətlərinə həsr olunan «Özəl səhiyyə» filmi nümayiş olunub.

Müvafiq dövlət qurumlarının nümayəndələrinin, tibb sahəsində fəaliyyət göstərən iş adamlarının iştirakı ilə keçirilən tədbirdə özəl tibb sektorunun mövcud çətinlikləri və onların həlli yolları, gələcək inkişaf perspektivləri müzakirə edilib. Eyni zamanda, yeni yaradılan «Özəl Tibb Müəssisələri Assosiasiyası» İctimai Birliyinin fəaliyyət istiqamətlərinə dair fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində həmçinin Səhiyyə Nazirliyinin, KOBİA-nın və «Özəl Tibb Müəssisələri Assosiasiyası» İctimai Birliyinin nümayəndələrinin iştirakı ilə dəyirmi masa təşkil olunub. Burada sahibkarların sualları cavablandırılıb və təklifləri dinlənilib.

# Rusiyanın Sverdlovsk vilayəti Azərbaycanla səhiyyə sahəsində əməkdaşlığa maraqlıdır

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyində Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatorunun müavini Vasili Kozlovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, görüşdə səhiyyə sahəsində əməkdaşlığın inkişafı məsələləri, o cümlədən tibbi xidmətlərin göstərilməsində təcrübə mübadiləsi, səhiyyədə mütərəqqi texnologiyaların tətbiqi, yüksək ixtisaslı kadrların hazırlığı müzakirə edilib.

**Səhiyyə naziri Teymur Musayev** bildirib ki, ölkələr arasında səhiyyə sahəsində əməkdaşlıq Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Rusiya Federasiyası Səhiyyə Nazirliyi arasında imzalanan «Səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq Sazişi»nə əsasən həyata keçirilir.




Nazir tibb təhsili sahəsində də uğurlu əməkdaşlığın olduğunu vurğulayıb: «Beynəlxalq reytinqdə ən yaxşı Rusiya tibb universitetinin ilk filialının məhz Azərbaycanda açılması Prezident İlham Əliyevin dəstəyi və Azərbaycanın Birinci vitse-prezidenti, Seçenov Universitetinin məzunu və fəxri professoru Mehriban xanım Əliyevanın təşəbbüsü sayəsində reallaşıb».

Həmçinin əczaçılıq, tibb mütəxəssislərinin mübadiləsi, prioritet sağlamlıq mövzularında təcrübələrin öyrənilməsinin uğurla həyata keçirildiyi qeyd edilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən **Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatorunun müavini Vasili Kozlov** qeyd edib ki, Azərbaycan Respublikası ilə Sverdlovsk vilayəti arasında imzalanan Xarici iqtisadi əlaqələrin tənzimlənməsinə dair Saziş çərçivəsində səhiyyə sahəsində də uğurlu əməkdaşlıq təcrübəsi mövcuddur. O, yüksəktexnoloji tibbi yardım, əczaçılıq, sanator-kurort müalicəsi, tibbi turizm və kadrların hazırlığı sahələrində birgə əməkdaşlığa maraqlı olduqlarını bildirib.

Tərəflər həmçinin digər istiqamətlər üzrə də gələcək əməkdaşlıq imkanlarını müzakirə ediblər.

# Səhiyyə və tibb elmi sahəsində Azərbaycan - Tacikistan əməkdaşlığı məsələləri müzakirə olunub

**Azərbaycan Səhiyyə Nazirliyində Tacikistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmon ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, görüşdə **səhiyyə naziri Teymur Musayev** ölkələrimizin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırıb. O, münasibətlərimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğulayıb. Teymur Musayev bu günlərdə Bakıda keçirilən SPECA sammiti çərçivəsində Azərbaycan və Tacikistan prezidentləri arasında görüşü xatırladıb. Nazir belə səfərlərin ikitərəfli münasibətlərin möhkəmləndirilməsində əhəmiyyətli olduğunu bildirib.

Teymur Musayev Azərbaycanla Tacikistan arasında səhiyyə sahəsində əməkdaşlıq əlaqələrinin inkişafı üçün geniş potensialın olduğunu söyləyib. «Ölkələrimizin tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur», — deyib.

Öz növbəsində **səfir İlxom Abduraxmon** Tacikistanın Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiyini vurğulayıb: «Ölkələrimiz arasında 1992-ci ildən etibarən diplomatik əlaqələr qurulub. Bu müddət ərzində Tacikistan və Azərbaycan dövlətlərinin qarşılıqlı münasibətləri müsbət dinamika ilə inkişaf edir».

Görüşdə həmçinin səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsi, tibb kadrlarının hazırlanması, tibb universitetləri və milli səhiyyə institutları arasında təcrübə mübadiləsi barədə faydalı müzakirələr aparılıb.

# Səudiyyə Ərəbistanı Krallığının Azərbaycana yeni təyin olunan səfiri ilə görüş keçirilib

**Azərbaycan Səhiyyə Nazirliyində Səudiyyə Ərəbistanı Krallığının ölkəmizə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli ilə görüş keçirilib.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, görüş tanışlıq və gələcək əməkdaşlığı müzakirə etmək, ümumi maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparmaq məqsədi daşıyıb.

Nazir Teymur Musayev yeni təyinatı münasibətilə səfiri təbrik edərək, Azərbaycan - Səudiyyə Ərəbistanı Krallığı tərəfdaşlığının inkişafı istiqamətində fəaliyyətində ona uğurlar arzulayıb.

Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığının ortaq mədəni və dini köklərlə bağlı olduqlarını diqqətə çatdıran nazir, digər istiqamətlərdə olduğu kimi, səhiyyə sahəsində də əməkdaşlığın genişləndiyini bildirib. Teymur Musayev ikitərəfli əlaqələrin möhkəmlənməsində yüksək səviyyəli səfərlərin məxsusi rolunu vurğulayıb. Ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində əlaqələrin mövcud vəziyyətindən məmnunluğunu bildirən Teymur Musayev əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Öz növbəsində **səfir İssam bin Saleh əl-Cuteyli** ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiyini bildirib. Onun sözlərinə görə, bu münasibətlər yaxın dostluq və sıx əməkdaşlıq üzərində qurulub. Səfir qeyd edib ki, dost ölkələr arasında səhiyyə sahəsində qarşılıqlı münasibətlərin səmərəliliyini artırmaq üçün bütün zəruri imkanlar mövcuddur.

Konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçən söhbət zamanı səhiyyə və tibb elmi sahəsində iki ölkə arasında münasibətlərin mövcud vəziyyəti və potensial inkişaf imkanları, həmçinin dərman və digər əczaçılıq məhsulları sahəsində ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Teymur Musayev: «Elektron reseptlərin tətbiqinə başlanılıb»

**Səhiyyə naziri Teymur Musayev jurnalistlərin ünvanladığı bir sıra suallara açıqlama verib.**

Teymur Musayev bildirib ki, «Dərman vasitələri haqqında» Qanunun tətbiqi ilə bağlı dərman vasitələrinə dair xüsusi qaydalar hazırlanıb və Nazirlər Kabinetinə təqdim olunub. Yeni qaydaların müasir tələblərə cavab verdiyini söyləyən nazir onu da vurğulayıb ki, bu qaydaların tətbiqi nəticəsində ölkəyə yüksəkkeyfiyyətli dərmanların gətirilməsi asanlaşacaq.

Səhiyyə naziri həmçinin məlumat verib ki, artıq elektron resept sistemi hazırdır: «İndi bir neçə xəstəxanada və ambulator tipli məntəqələrdə pilot layihə şəklində elektron reseptlərin tətbiqinə başlanılıb. Gələn il yanvarın 1-dən elektron reseptlər bütün ölkə ərazisində tətbiq olunacaq. Bununla bağlı bu ilin dekabr ayında geniş tədbir keçiriləcək. Orada istər tibb işçiləri, istər vətəndaşlar, istərsə də əczaçılar üçün elektron reseptlərin faydası izah olunacaq».

Ölkədə epidemioloji vəziyyətlə bağlı açıqlama verən Teymur Musayev deyib ki, hazırda Azərbaycanda yoluxucu xəstəliklərlə bağlı vəziyyət nəzarət altındadır. Nazirlər Kabinetinin müvafiq qərarı ilə ölkədə uşaqlar arasında 11 yoluxucu xəstəlik üzrə peyvəndləmə aparıldığını söyləyən nazir bu işin ildən-ilə təkmilləşdirildiyini, ölkəyə müasir vaksinlər gətirildiyini bildirib: «O cümlədən mövsümi qriplər əleyhinə vaksinləri gələn həftədən etibarən ambulator tipli ilkin səhiyyə xidmətləri göstərən bütün müəssisələrdə əldə etmək mümkün olacaq. Vaksinlər böyüklər və 2 yaşdan yuxarı uşaqlar üçün nəzərdə tutulub».

# Ümumdünya Antimikrob Preparatlardan Düzgün İstifadəyə dair Maarifləndirmə Həftəsi keçirilib

**Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı ofisi Ümumdünya Antimikrob Preparatlardan Düzgün İstifadəyə dair Maarifləndirmə Həftəsi çərçivəsində Milli Konfrans keçirib.**

AZƏRTAC xəbər verir ki, üç gün davam edən milli konfransda beynəlxalq mütəxəssis qrupu, Gürcüstan, Qazaxıstan və Türkiyədən proqram üzrə məsul şəxslər, özəl sektor, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Azərbaycandan Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Azərbaycan Tibb Universiteti, Tibbi Kollec, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, AQTA və s. qurumların nümayəndələri iştirak ediblər.

Tədbirdə antimikrob preparatlara qarşı davamlılıq, infeksiyaların profilaktikası və infeksion nəzarət, «Vahid Sağlamlıq» barədə maarifləndirməni artırmaq, bu sahələrdə çalışan agentliklər, qurumlar və təşkilatlar arasında əməkdaşlığı gücləndirməklə bağlı məsələlər ətrafında çıxışlar dinlənilib, COVID-19 və səhiyyədə digər fövqəladə hallarla bağlı əldə olunmuş təcrübələrdən danışılıb, fikir mübadiləsi aparılıb, gələcək əməkdaşlığın yolları müzakirə edilib.

Səhiyyə Nazirliyinin İctimai səhiyyə və sanitariya-epidemioloji nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova milli konfransda çıxışında bildirib ki, yaxın gələcəkdə Azərbaycanda elektron resept sisteminə keçid nəzərdə tutulur. Bu sistemin tətbiqindən sonra apteklərdən antibiotikləri reseptsiz almaq mümkün olmayacaq.

O xatırladıb ki, qanunvericilikdə antibiotiklər reseptlə satılan dərmanlar sırasına daxil edilib. Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən, Səhiyyə Nazirliyinə bu ilin sonunadək elektron resept sisteminin tətbiqi tapşırılıb. Bu sistem Azərbaycanın tibb müəssisələrində vətəndaşlara verilən reseptlərin elektron qeydiyyatını nəzərdə tutur. Bu, reseptlərin oxunaqlığını və ya səhv şərhini aradan qaldıracaq, əvvəllər təyin edilmiş dərmanların tarixini görməyə, dərmanlar arasında arzuolunmaz uyğunsuzluğun qarşısını almağa, dəqiq dozaları göstərməyə, habelə Xəstəliklərin Beynəlxalq Təsnifatına əsaslanan diaqnozlara uyğunlaşmağa imkan verəcək.

# Səhiyyə Nazirliyi qızılca ilə bağlı vəziyyət haqqında məlumat yayıb

**Səhiyyə Nazirliyi ölkəmizdə qızılca xəstəliyinin yayılması ilə bağlı yaranmış vəziyyət haqqında məlumat yayıb.**

Məlumatda xatırladılır ki, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən 2015-ci ildən etibarən Azərbaycanda rəsmi olaraq qızılca və məxmərək xəstəliklərinin eliminasiyası (ölkə ərazisində endemik halların qeydə alınmaması) elan edilib.

nəzərə alaraq, ölkə ərazisində orta və yaşlı əhalinin profilaktika məqsədilə vaksinasiyası üçün peyvənd tətbiq olunacaq.

Azərbaycan Texniki Universitetində 8 tələbədə qızılca xəstəliyi aşkar edilməsi ilə bağlı yayılan xəbərlərlə əlaqədar olaraq qeyd edilib ki, noyabr ayı ərzində Azərbaycan Texniki Universitetindən 1 nəfər qızılcaya şübhəli şəxsin məlumatı daxil olub və onun son diaqnozu inkar edilib.



Bildirilir ki, ötən illər ərzində (2014 və 2018-ci illərdə) ölkə ərazisində qızılca infeksiyasının 2 kiçikmiqyaslı alovlanmasının qeydə alınmasına baxmayaraq, həyata keçirilən əks-epidemik və profilaktik tədbirlər nəticəsində qısa müddət ərzində bu alovlanmalar dayandırılıb:

«Həmsərhəd ölkələrdən 2023-cü ilin aprel ayından başlayaraq gətirilmə qızılca hadisələri ilə əlaqəli olaraq, əhali arasında xəstəliyin sporadik yayılma halları qeydə alınıb. Yoluxma əsasən uşaqlar arasında müşahidə edilib. Ötən dövr ərzində ölkə ərazisində 284 qızılcaya yoluxma hadisəsi qeydə alınıb. Təsdiq olunan hadisələrin yalnız 12%-i (35 nəfər) yaşlı insanlar arasında olub.

Məlumatda deyildiyinə görə, hadisələrin epidemioloji təhlili göstərir ki, yoluxmanın əsas səbəbi peyvənddən yayınma hallarının olmasıdır. Bu da əksər hallarda əsassız əks-göstərişlər və peyvənddən imtina ilə izah olunur. Belə ki, yoluxan xəstələrin 95%-i profilaktik peyvənd təqviminə əsasən peyvəndlərini almayan uşaqlardır:

«Yaranan vəziyyətlə əlaqədar olaraq, mütəşəkkil kollektivlərdə (xüsusilə internat tipli məktəblərdə), qapalı müəssisələrdə (uşaq evləri, sanatoriyalarda) uşaqların sıx təması nəticəsində hava-damcı infeksiyalarının yayılması üçün daha əlverişli mühitin olmasını nəzərə alaraq, bütün ölkə ərazisində tibb müəssisələri tərəfindən profilaktik peyvənd işi gücləndirilib. Eyni zamanda, yaşa görə peyvəndlərdən kənar qalan uşaqların aktiv aşkarlanması və təcili vaksinasiyaya cəlb edilməsi işinə nəzarət artırılıb.

Həmçinin ocaqlarda əks-epidemik tədbirlər görülür, xəstə insanlarla təmasda olan şəxslər müəyyən edilir və 21 günlük müşahidə aparılır».

Məlumatda həmçinin bildirilir ki, epidemioloji vəziyyəti

Qeyd edək ki, Səhiyyə Nazirliyinin bundan əvvəl yaydığı daha bir məlumatda ölkənin bəzi bölgələrində qızılca virusuna tək-tək yoluxma hallarının müşahidə olunduğu söylənilib. Bildirilib ki, hadisələr qızılca əleyhinə peyvənd olunmayan uşaqlar arasında qeydə alınıb: «Bununla əlaqədar olaraq xəstəlik ocaqlarında əks-epidemik tədbirlər aparılır, qızılca peyvəndindən kənarda qalan uşaqlar QPM (qızılca - parotit - məxmərək əleyhinə) vaksini ilə peyvəndə cəlb olunurlar. Hazırda peyvənd işləri davam etdirilir, epidemioloji vəziyyət stabildir.

Qızılca xəstəliyinə yoluxma hallarının qarşısının alınması məqsədilə hər hansı səbəbdən peyvənddən kənar qalan uşaqların yaşayış yeri üzrə uşaq əhalisinə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrində qızılca, epidemik parotit və məxmərək infeksiyaları əleyhinə QPM vaksini ilə peyvənd edilməsi tövsiyə olunur», – deyə, Səhiyyə Nazirliyinin məlumatında qeyd edilib.

Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən isə bildirilib ki, qızılca xəstəliyi ilə bağlı yaranan epidemioloji vəziyyətlə əlaqədar olaraq, qızılca peyvəndindən kənarda qalan uşaqların tibb müəssisələrində siyahısının hazırlanması və onların peyvəndə cəlb olunması davam edir. Qeyd olunub ki, qızılca peyvəndi uşaqlara 12 ayında və 6 yaşında vurulur. Qurum uşaqların qızılca peyvəndindən kənarda qalmasının səbəbini valideynlərin vaksinlərdən əsassız imtina etməsi, eləcə də COVID-19 pandemiyası dövründə uşaqların vaksinasiyadan kənarda qalması ilə izah edir. Mərkəzdən həmçinin bildiriblər ki, belə halların qarşısını almaq məqsədilə valideynlər arasında peyvəndlərin vacibliyi haqqında maarifləndirmə işləri davam etdirilir.

# Üçüncü Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları Sərgisi keçirilib

**Bakı Ekspo Mərkəzində III Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları Sərgisinin («Medinex») açılışı olub.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, açılış mərasimində səhiyyə naziri Teymur Musayev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov və digər rəsmi şəxslər iştirak ediblər.

«Medinex» sərgisi sənaye mütəxəssislərinə və sahibkarlara işgüzar əlaqələri inkişaf etdirmək və yeni əlaqələr qurmaq, aktual məlumatlar mübadiləsi aparmaq və sərfəli müqavilələr bağlamaq imkanı yaradan səmərəli platformadır.

Builki sərgi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi kimi əlamətdar bir ilə təsadüf edir. Bu münasibətlə sərginin təqdimat zonasında Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Tibbi İnnovasiyalar Forumu təşkil olunub. Bu il həmçinin təbabətin inkişafına əhəmiyyətli töhfələr vermiş görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da anadan olmasının 100-cü ildönümü qeyd edilir. Sərgidə bu əlamətdar hadisəyə həsr olunan oftalmologiya mövzusunda panel müzakirəsi keçirilib.





Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları sərgisinin açılış mərasimində çıxış edən **səhiyyə naziri Teymur Musayev** bildirib ki, ölkə səhiyyəsinin inkişafı Azərbaycan dövlətinin fəaliyyətində əsas istiqamətlərdən biridir: «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əhalinin sağlamlığının qorunmasına göstərdikləri diqqət və qayğının nəticəsidir ki, ölkəmizdə müasir səhiyyə infrastrukturu obyektləri inşa edilir, tibb müəssisələri ən son texnoloji avadanlıqlarla təchiz olunur və maddi-texniki baza gücləndirilir».

Ölkədə tibb elminin və səhiyyənin inkişafında toxunan Teymur Musayev deyib: «Ölkə rəhbərliyi tərəfindən Səhiyyə Nazirliyinin qarşısında müəyyən olunan əsas vəzifələrdən biri də milli səhiyyə sistemində tibb elminin nailiyyətlərinin tətbiqini təmin etməkdir. Tibb mütəxəssislərimiz əhalinin sağlamlığının yaxşılaşdırılmasına yönəlik fəaliyyətlərində peşəkarlığın artırılmasına xüsusi yer ayırır, bilik və bacarıqlarının səhiyyənin daim yenilənən tələblərinə uyğunlaşdırılması üçün səhiyyə sektorundakı dəyişiklikləri yaxından izləyirlər».

Nazir bildirib ki, əsas vəzifələrdən biri də milli səhiyyə sistemində tibb elminin nailiyyətlərinin tətbiqini təmin etməkdir: «Bu baxımdan, nazirlik tibb ictimaiyyətinə innovativ məhsulların tanıdılmasına, mütəxəssislərin müasir trendləri izləməsinə, elmi-texniki nailiyyətlərin tətbiqinə imkan yaradan sərgilərin təşkilini yüksək qiymətləndirir və dəstəkləyir. Səhiyyə sektoru qlobal miqyasda ən sürətlə inkişaf edən sahələrdən biridir. Bugünkü şəraitdə uğur qazanılması üçün keyfiyyətli məhsulların istehsalı qədər onların tanıdılması da əhəmiyyətlidir. COVID-19 pandemiyası hər bir ölkənin özünü tibbi məhsullarla təmin edə bilməsinin strateji məsələ olduğunu önə çıxartdı. Bu gün burada qurulan münasibətlərin qarşılıqlı biznes maraqlarının yüksəldilməsinə, investisiya yatırımlarının artırılmasına və əhalinin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcəyinə inanıram».

Tibbi sərgilərin 30 ildən artıqdır keçirildiyini, bu sərginin həmin müsbət ənənənin davamı olduğunu deyən nazir artıq 3-cü dəfədir ki, təşkil olunan «Medinex» sərgisinin həm tibb mütəxəssislərinin yenilikləriə tanışlığı, həm biznes nümayəndələri arasında qarşılıqlı əlaqələrinin inkişafı, həm də hər bir vətəndaşımızın sağlamlığının yaxşılaşdırılması sahəsində davamlı platforma rolunu oynayacağına əminliyini ifadə edib.

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev** bu gün ölkəmizdə səhiyyə sahəsində aparılan əsas islahatlardan, o cümlədən icbari tibbi sığortanın tətbiqindən danışıb: «Bu sərgi icbari tibbi sığorta haqqında məlumatların ölkəmizin geniş vətəndaş kütləsinə çatdırılmasına imkan verən, ölkədəki dövlət və özəl tibb müəssisələri arasında əməkdaşlığın qurulmasına şərait yaradan platformalardan biridir».

**TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov** ölkədə səhiyyənin inkişafının əsas istiqamətləri, o cümlədən, ölkə vətəndaşlarının sağlamlığının qorunması, tibb sahəsində innovasiyaların tətbiq edilməsi məsələləri haqqında ümumi məlumat verib. O bildirib ki, sərgi tibb sahəsində yeni məhsulların və texnologiyaların geniş şəkildə təqdim olunmasını əsas məqsəd kimi öz qarşısına qoyub.

**Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** belə sərgilərin səhiyyənin inkişafında yeni imkanlar yaratdığını bildirib: «Bu tədbir tibb sahəsinin həm təcrübəli, həm də gənc mütəxəssisləri, ixtisaslaşdırılmış təhsil müəssisələrinin rezidentləri və tələbələri üçün çox vacibdir. Sərgi çərçivəsində keçirilməsi nəzərdə tutulan praktiki və elmi tədbirlər gənc mütəxəssislərin inkişafı və yeni biliklərə yiyələnməsində mühüm rol oynaya bilər».

Ümumilikdə 14 ölkədən 100 şirkətin qatıldığı sərgidə aparıcı yerli və xarici istehsalçılar və distribüterlər ölkə klinikalarının təkmilləşdirilməsinə, istehlakçıların tələblərinin ödənməsinə və müalicənin effektivliyinin artırılmasına kömək etmək üçün öz yeni məhsul və xidmətlərini təqdim ediblər. İştirakçı ölkələr arasında Azərbaycan, Almaniya, Belarus, Cənubi Koreya, Çin, Əlcəzair, Rusiya, Fransa, Qazaxıstan, Qətər, Misir, Türkiyə və s. ölkələr yer alıb. Sərgidə xarici şirkətlərlə yanaşı, tibbi avadanlıqların aparıcı yerli distribüterləri, qlobal istehsalçıların tərəfdaşları, eləcə də «Made in Azerbaijan» brendi altında məhsulların yerli istehsalçıları da iştirak ediblər.

Bu il sərgidə xüsusi olaraq Belarus və Qazaxıstan, bundan başqa, Rusiyanın müxtəlif vilayətləri — Yaroslavl, Moskva, Sverdlovsk vilayətləri, eləcə də Tatarıstan Respublikası öz kollektiv stendləri ilə çıxış ediblər.

# Səhiyyə Nazirliyində bir sıra aparıcı beynəlxalq şirkətlərlə əməkdaşlığın inkişafı müzakirə olunub

**Səhiyyə Nazirliyində bir sıra aparıcı beynəlxalq şirkətlərin rəhbərləri ilə görüş keçirilib.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətinin məlumatında bildirilir ki, beynəlxalq müstəvidə aparıcı şirkətlərdən olan Avstriyanın tibb avadanlıqları istehsalçısı «Meteka»nın rəhbəri Roland Katşniq və «Qatar Pharma»nın idarə heyətinin sədri Əhməd Məhəmməd əl-Hayyi əs-Suleyti ilə keçirilən görüşdə səhiyyə və əczaçılıq sahəsində əlaqələrin genişləndirilməsi, birgə layihələrin reallaşdırılması və beynəlxalq aparıcı şirkətlərin ölkəmizlə fəaliyyət istiqamətləri müzakirə olunub.

Görüşdə qonaqlara məlumat verilib ki, Azərbaycanda səhiyyənin inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir, bu sahədə müasir tendensiyalar və innovasiya təşəbbüsləri davamlı tətbiq olunur. Qeyd edilib ki, hazırda Azərbaycanda digər sahələrlə yanaşı, səhiyyədə də dövlət - özəl tərəfdaşlığının genişləndirilməsi və iqtisadi baxımdan sektorun inkişaf səmərəliliyinin artırılması istiqamətində ardıcıl layihələr icra olunur. Nazir Teymur Musayev bildirib ki, səhiyyədə innovativ nailiyyətlərin tətbiqi, yüksək texnologiyalı əczaçılıq sənayesinin qurulması və inkişafı, tibb xidməti göstərən müəssisələrin müasir standartlar əsasında yenilənməsində aparıcı şirkətlərlə qarşılıqlı əməkdaşlıq mühüm rol oynayır.

Görüşdə «Meteka» şirkətinin dünyada ilk dəfə olaraq tibbi tullantıların dezinfeksiyası üçün cihazlar hazırladığı, «Qatar Pharma»nın isə yüksəkkeyfiyyətli dərman istehsalı üzrə ixtisaslaşdığı bildirilib.

Görüşün sonunda tərəflər arasında əməkdaşlığın inkişaf etdirilməsi və maraq doğuran digər mövzular ətrafında müzakirələr aparılıb.

# Ümumdünya Diabetlə Mübarizə Gününə həsr edilmiş tədbir keçirilib

**Respublika Endikrinoloji Mərkəzi, Azərbaycan Diabet Liqası İctimai Birliyi və «Novo-Nordisk» şirkətinin dəstəyi ilə Ümumdünya Diabetlə Mübarizə Gününə həsr edilmiş tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir «Öz riskini bil, öz cavabını bil» devizi ilə «Şəkərli diabet Tip 2 xəstələrində erkən diaqnozun qoyulması, vaxtında müayinə və müalicənin aparılması» mövzusunda olub.

Tədbirdə «Tip 2 şəkərli diabetin idarə olunmasında nə dəyişib?», «Şəkərli diabet pasiyentlərinin terapevtik təlimi», «Diabet və ürək-damar xəstəlikləri» mövzuları müzakirə edilib.

Qeyd edək ki, Ümumdünya Diabetlə Mübarizə Günü 1991-ci ildən etibarən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Beynəlxalq Diabet Federasiyasının təşəbbüsü ilə noyabrın 14-də qeyd edilir. 2006-cı ildə BMT Baş Assambleyası şəkərli diabetlə bağlı qətnamə qəbul edib. Sənəd ictimaiyyəti xəstəliyin yaranma səbəbləri, əlamətləri, fəsadları, müalicəsi və profilaktikası barədə məlumatlandırmaq, onun inkişafının qarşısının alınması yollarını araşdırmaq məqsədi daşıyıb. 2007-ci ildən Ümumdünya Diabetlə Mübarizə Günü BMT-nin himayəsi altında keçirilməyə başlayıb.

Diabetin araşdırılma tarixinə gəldikdə, 1922-ci ilin yanvarında Frederik Bantinq ilk dəfə insulinin inyeksiyasını şəkərli diabetin ağır formasından əziyyət çəkən 14 yaşlı oğlana vuraraq onun həyatını xilas edib. O, bundan sonra ixtira etdiyi insulinə patent almaq hüququnu Toronto Universitetinə verib. Həmin ilin axırlarında yeni preparat dərman bazarına çıxarılıb.

Frederik Bantinqin Con Makleodla birlikdə ixtira etdiyi hormon milyonlarla diabet xəstəsinin həyatını xilas edib. Şəkərli diabet indi də sağalmayan xəstəliklər sırasına daxil olsa da, insulinin hesabına onu nəzarətdə saxlamaq mümkündür. Elə buna görə də bəzən şəkərli diabet xəstəlik yox, həyat tərzi hesab edilir. 1923-cü ildə biokimya və təbabət sahəsində Bantinq və Makleoda Nobel mükafatı verilib.

Hazırda şəkərli diabet ateroskleroz və xərçənglə yanaşı, dünyada ən çox əlilliyə və ölümə səbəb olan ilk üç xəstəlikdən biri hesab edilir. ÜST-nin hesablamalarına görə, bu problem dünya əhalisinin ölüm faizini 2-3 dəfə artırır. Xəstəlik, eyni zamanda, yayılma miqyasına görə də çox aktualdır. Əgər 1980-ci ildə şəkərli diabetdən 108 milyon nəfər əziyyət çəkirdisə, hazırda həmin rəqəm 537 milyona çatıb. Yəni hər il şəkərli diabetdən əziyyət çəkənlərin siyahısı artmaqda davam edir. Xəstəliyin risk qrupuna 24-60 yaş arasında olanlar daxildir.

Əvvəllər qanda qlükozanın miqdarı 1 litrdə 6,6 millimoldan çox olanlar diabet xəstəsi hesab edilirdi. İndi isə qanda qlükozanın miqdarının 3,3-5,5 millimola qədər olması norma hesab edilir. Bu, şəkərli diabet xəstələrinin sayının artması deməkdir.

Hər yerdə olduğu kimi, Azərbaycanda da diabet xəstəliyinin əsas səbəbi azhərəkətli həyat tərzi, qeyri-düzgün qidalanma və artıq çəkidir. Ötən ilin statistikasına görə, ölkəmizdə şəkərli diabet xəstələrinin sayı 320,9 mindən çoxdur.

Respublika Endokrinoloji Mərkəzinin direktoru, tibb üzrə fəlsəfə doktoru Nərmin İsmayılova jurnalistlərə açıqlamasında deyib ki, hazırda Mərkəzdə qeydiyyatda 1300-ə yaxın şəkərli diabetdən əziyyət çəkən uşaq var. Onlardan 123 nəfəri insulinin vurulmasında xüsusi cihazlar olan pompadan istifadə edir. 18 yaşadək uşaqlar ən keyfiyyətli insulinlə təmin olunurlar. Digər MDB ölkələrində bu cür insulinlə təminat yoxdur. Bu uşaqlara diqqət çox yüksək səviyyədədir. Məqsədimiz şəkərli diabetdən əziyyət çəkən uşaqların da öz yaşıdları kimi böyüməsi, onlara sağlam gələcək bəxş etməkdir.

Respublika Endokrinoloji Mərkəzinin direktoru həmçinin bildirib ki, ölkəmizdə yalnız uşaqlar deyil, böyüklər də ən yaxşı insulinlə təmin olunurlar: «Poliklinikalarda qeydiyyatda olan, şəkərli diabetdən əziyyət çəkən şəxslərin də lazımi preparatlarla təminatı aparılır. Bu gün Azərbaycanda şəkərli diabetin müalicə və müayinəsinə çox böyük diqqət yetirilir. Lakin biz arxayınlaşmamalı, daha da fəallıq göstərməliyik. Məqsədimiz şəkərli diabetin erkən aşkarlanmasıdır. Çünki erkən diaqnoz başqa xəstəliklərin də qarşısının alınması deməkdir. Odur ki, şəkərli diabetdən əziyyət çəkənlərin lazımi preparatlarla təminatı ilə yanaşı, həm onların, həm tibb personalının, həm də əhalinin maarifləndirilməsinə çalışırıq».

# Azərbaycanın gənc oftalmoloqlarının konfransı və I Forumu keçirilib



**Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş XV Azərbaycan Gənc Oftalmoloqlar Konfransı («GOK - 2023») və Azərbaycan Gənc Oftalmoloqlarının I Forumu keçirilib.**

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Elmi-məlumat, tədris və təşkilati-metodik bölməsindən bildirildiyinə görə, iki gün davam edən və iki böyük tədbiri birləşdirən konfransın açılış mərasimində çıxış edən AOC Gənc Oftalmoloqlar Komitəsinin koordinatoru Emin Əlihüseynli komitənin təsis olunması, gənclərin komitənin işinə cəlb edilməsi, həmçinin gələcək planlar barədə iştirakçılara məlumat verib.

Sonra AOC Gənc Oftalmoloqlar Komitəsinin sədri, tibb üzrə fəlsəfə doktoru Mirana Mirişova çıxış edib.

Açılış mərasimində Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri professor Elmar Qasımova «Gənc Oftalmoloqların Dostu» fəxri adının kuboku və diplomu təqdim edilib. Qeyd edək ki, bu fəxri ad ildə bir dəfə ölkəmizdə gənc oftalmoloqların inkişafına xüsusi diqqət və dəstək göstərmiş şəxslərə verilir.

XV Azərbaycan Gənc Oftalmoloqlar Konfransında müasir oftalmologiyanın müxtəlif subixtisaslarını əhatə edən məruzələr təqdim olunub. Belə ki, gənc mütəxəssislər buynuz qişa, katarakta və refraksion cərrahiyyə, okuloplastika, okulyar travmatologiya, okulyar onkologiya, neyrooftalmologiya, tibbi və cərrahi retina, pediatrik oftalmologiya və çəpgözlük, optika və refraksiya, okulyar infeksiyalar, həmçinin uveitlərə dair elmi yenilikləri ehtiva edən təqdimatlar ediblər. Konfransda gənc oftalmoloqlarla yanaşı, oftalmologiya üzrə rezidentlər də fəallıq nümayiş etdiriblər. Həmçinin konfransa «Zoom» vasitəsilə qoşulan Türkiyə, Rusiya, İtaliya, San-Marino, Hindistan və Honq-Konqdan olan mütəxəssislərin məruzələri dinlənilib.

Tədbirin ikinci günündə Azərbaycan Gənc Oftalmoloqlarının I Forumu keçirilib. İlk dəfə belə formatda təşkil edilən tədbirin əsas məqsədi gənc mütəxəssislərin qarşılaşdığı problemləri dinləmək, beynəlxalq oftalmoloji aləmdə gənclərin professional inkişafına yönəlmiş faydalı resursları onların diqqətinə çatdırmaq, praktik oftalmologiyada kövrək addımlarını atan gənc oftalmoloqlara bu sahədə artıq sözünü demiş, müəyyən bilik və təcrübəyə malik mütəxəssislərlə fikir mübadiləsi aparmaq üçün şəraitin yaradılmasından ibarət olub.

Forum Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri, professor Elmar Qasımovun dəstəyi ilə təşkil edilib.

«Gənc oftalmoloqların professional inkişafında perspektivlər, beynəlxalq resurslar, problemlər və həll yollarının axtarışı» mövzusunda keçirilən tədbirdə gənc oftalmoloqların diqqətini cəlb edən müxtəlif mövzulara dair çıxışlar təqdim olunub.

# Doqquz aptekdə nöqsan aşkarlandı

**Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin (AEM) oktyabrda əczaçılıq müəssisələrində keçirdiyi yoxlamalar zamanı 9 aptekdə nöqsanlar aşkarlanıb.**




Bu barədə AEM-dən verilən məlumatda bildirilib ki, oktyabrda aptek təşkilatlarında keçirilən yoxlamalar nəticəsində Bakı şəhəri üzrə 1, ölkənin digər şəhər və rayonlarında 52 aptek olmaqla, ümumilikdə 53 aptekdə planlı və plandan kənar yoxlamalar aparılıb. Yoxlamalar zamanı 9 aptekdə nöqsan aşkarlanıb ki, onların 8-i rayonlarda yerləşir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3 maddələri üzrə 9 protokol tərtib edilib.

«Bir daha vətəndaşların nəzərinə çatdırırıq ki, aptekdən alınan dərman vasitələrinin keyfiyyəti barədə şübhə yaradan hər hansı dərman vasitəsi haqqında bizə məlumat verə bilərlər. Belə hallarla rastlaşdıqda vətəndaş AEM-in «Bir pəncərə» sektoruna müraciət edə və ya «qaynar xətt»lə əlaqə saxlaya bilər. Həmçinin, vətəndaşlar AEM-in www.pharma.az saytının «MÜRACİƏT» bölməsinə daxil olaraq, əldə edilən dərmanın qutusunun şəklini, alış çekini və alınan ünvanı yükləməklə, ölkəyə qeyri-qanuni yolla gətirilən dərman vasitəsi barədə məlumat verə bilərlər. Belə olan halda AEM göstərilən əczaçılıq təşkilatında şikayətdə qeyd olunan dərman vasitəsilə bağlı araşdırma başlayaraq müvafiq tədbirlər görür», — deyə mərkəzin verdiyi məlumatda qeyd olunub.

# «Ürəyinizi qoruyun»

*Elmi Tədqiqat Kardiologiya İnstitutu bu layihə çərçivəsində maarifləndirmə aksiyası keçirib*

**Səhiyyə Nazirliyi Elmi Tədqiqat Kardiologiya İnstitutu (ETKİ) Azərbaycan Dövlət Neft və Sənaye**



**Universitetində (ADNSU) «Ürəyinizi qoruyun» layihəsi çərçivəsində maarifləndirmə aksiyası keçirib.**

İnstitutdan verilən məlumata görə, tədbirdə çıxış edən ADNSU-nun prorektoru, dosent Ata Babayev və ETKİ-nin elmi işlər üzrə direktor müavini, tibb elmləri doktoru Rafail Daşdəmirov müasir dövrdə sağlam həyat tərzinin təbliği və ürək xəstəliklərinin artması baxımından layihənin əhəmiyyətindən danışıblar.

Tədbirdə «Ürəyinizi qoruyun» layihəsi çərçivəsində ürək-damar xəstəliklərinə qarşı mübarizə aparmaq məqsədilə tələbələr üçün sağlam həyat tərzi və zərərli vərdişlərdən qorunma haqqında videoçarxlar nümayiş olunub, maarifləndirici bukletlər paylanılıb və aparıcı mütəxəssislər tərəfindən «Sağlam genofonda addım ataq» mövzusunda mühazirələr oxunub.

Həmçinin aksiya çərçivəsində iştirakçılar ilkin müayinələrə (boy, çəki, təzyiq və nəbzin ölçülməsi) dəvət edilib, onlara ürək-damar xəstəliklərinin əsas risk amilləri barədə məlumat verilib.

# ÜST araşdırması: incəsənət xəstəlikdən şəfa tapmağa kömək edir

**İncəsənətin həyatımızı bəzədiyi və zənginləşdirdiyi, əlbəttə ki, çoxdan məlumdur, indi isə onun ürək xəstəliyi və hətta xərçəng kimi yoluxucu olmayan xəstəliklərin öhdəsindən gəlməyə kömək edərək sağlamlığımıza müsbət təsir göstərə biləcəyinə dair elmi dəlillərin sayı gündən-günə artır. Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosunun yeni araşdırmasının nəticələri təsdiq edir.**



ÜST-nin sağlamlıq və sənət arasındakı əlaqəni araşdıran proqramlar üzrə məsul əməkdaşı Kristofer Beyli incəsənətin piylənmə və xərçənglə mübarizədə orqanizmə kömək etdiyini bəyan edib.

Gündən-günə daha çox elmi dəlil sənətin dərman və digər metodlarla yanaşı, kompleks müalicənin təsirli komponenti kimi istifadə edilə biləcəyini sübuta yetirir. ÜST-nin qeyd etdiyinə görə, istənilən halda, art-terapiya heç bir xüsusi risk daşımır və qeyri-invazivdir.

ÜST-nin Avropa bürosunda qeyri-infeksion xəstəliklərin qarşısının alınması və müalicəsi üçün tədbirlər kompleksinin tərkib hissələrindən biri kimi sənətin potensial effektivliyi öyrənilir. Bu xəstəliklər ölüm faktlarının 90 faizində bölgə sakinlərinin həyatla vidalaşmasına səbəb olur.

ÜST-nin qidalanma və fiziki fəaliyyət üzrə regional məsləhətçisi doktor Kremlin Vikramasinq deyib: «Yeni araşdırma incəsənətin qeyri-infeksion xəstəliklərin qarşısını almağa necə kömək etdiyinə dair nümunələri əks etdirir və tərtib etdiyimiz hesabat bu sahədə gələcək əməkdaşlıq üçün zəmin yaradır. Ümid edirəm ki, sözügedən sənəd incəsənətin sağlamlıq üçün əhəmiyyətli olduğunu sübuta yetirməyə və bu cür metodların praktik tətbiqi ilə bağlı fikirlərin təbliğinə kömək edəcək».

Mütəxəssislərin bildirdiyinə görə, bu araşdırmaların təcrübədə tətbiq edilməsi imkanları məhdud deyil. Hesabatda qeyri-infeksion xəstəliklərlə mübarizədə incəsənətin tətbiq edilməsi ilə bağlı bir neçə uğurlu nümunə təqdim edilib. Məsələn, İspaniyada əhalinin həssas təbəqədən olan nümayəndələrinə həm gözəl sənət nümunəsinə toxuna biləcəkləri, həm də sağlamlığın qorunması barədə məlumat ala biləcəkləri tədbirlərdə iştirak etmək təklif olunub. Macarıstanda tənəffüs yolları xəstəlikləri olan xəstələrə reabilitasiya proqramının bir hissəsi qismində xorda oxumaq tövsiyə edilib. Rusiyanın Voloqda şəhərində Milli Preventiv Tibb Tədqiqatları Mərkəzinin layihəsi çərçivəsində şagirdlərə xəstəliklərdən qorunmağı öyrətmək üçün nağıllardan və uşaq ədəbiyyatının digər nümunələrindən istifadə olunub.

ÜST-nin bildirdiyinə görə, bu gün səhiyyə sistemlərinin rəhbərləri incəsənətin xəstəliklərin müalicə edilməsi ilə bağlı potensialından istifadə etməyə hazırdırlar. Art-terapiya gündən-günə populyarlaşır. Mütəxəssislərin fikrincə, elmi məlumatlara əsaslanan layihələr gənc və yaşlı insanları birləşdirə və onların həyatını daha rəngarəng və dolğun edə bilər.

# ÜST tütün sənayesi tərəfindən manipulyasiyaya qarşı mübarizədə gəncləri dəstəkləyir

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) «Yalan danışmağı dayandırın» adlı kampaniyanın başlanmasını rəsmi elan edib. Bu təşəbbüs tütün sənayesinin siyasətə təsirinə son qoymağa və gəncləri bu sahənin ölümcül məhsulundan qorumağa çağırır.**

ÜST-nin saytı xəbər verir ki, «Tütün sənayesi 2023-cü ilin qlobal müdaxilə indeksi»nin məlumatına görə, tütün sənayesinin bütün dünyada səhiyyə sahəsinə təsiri güclənib. Sahə onun maraqlarını inkişaf etdirən təşkilatları maliyyələşdirir, siqaretçəkməyə qarşı mübarizədə lobbiçiliyə böyük vəsaitlər sərf edir.

Bundan başqa, tütün şirkətləri və onların təmsilçiləri məhkəmələrə müraciət edir, siyasətə və qanunvericiliyə təsir göstərmək üçün maliyyə və digər maraq oyadıcı amillər təklif



edirlər. ÜST bildirir ki, hətta tütün əleyhinə mübarizədə Çərçivə konvensiyası tərəflərinin qarşıdakı konfransına hazırlıq zamanı da belə hallar baş verir. Bununla belə, ÜST-nin Çərçivə konvensiyasının tərəflərindən 183-ü sənayenin təsirinə müqavimət göstərmək, əhalinin həssas qrupunun, o cümlədən gənclərin sağlamlığını müdafiə etmək öhdəliyini öz üzərlərinə götürüb.

ÜST gənc nəslin maraqlarını müdafiə etməyə və ona tribunanı təqdim etməyə çalışır. Tütün istehlakçılarının yarısı vaxtından əvvəl həyatla vidalaşdığından tələbatın və gəlirin dəstəklənməsi əhəmiyyətli şəkildə gənc alıcıların cəlb olunmasından asılıdır. Tütün şirkətləri gənclərin etibarını və marağını qazanmaqdan ötrü müxtəlif vasitələrdən istifadə edirlər.

Mentollu və ətirli siqaretlər, eləcə də şirin dada və cəlbedici dizayna malik elektron siqaretlər gənc nəsil arasında məhsulun populyarlaşmasına şərait yaradıb. Eyni zamanda, bu məmulatların istehlakçıları onların mənfi təsiri barədə məhdud informasiyaya malikdirlər. Tütün şirkətləri saxta təşkilatlar, sosial şəbəkələrdə rəy liderləri, sponsorluq etdikləri tədbirlər, yanlış fikirlərə əsaslanan tədqiqatların maliyyələşdirilməsi və korporativ sosial məsuliyyət sahəsində təşəbbüslər vasitəsilə dezinformasiya yayırlar. Sahənin təmsilçiləri ictimaiyyətə həmişə yalan danışıblar və keçmişdə hətta təkid ediblər ki, siqaretçəkmə ağciyər xərçəngi ilə əlaqəli deyil. Bu gün məlumdur ki, tütün bütün xərçəng hallarının 25 faizinin səbəbkarıdır və hər il 8 milyondan çox insanı öldürür. Bununla yanaşı, tütün sənayesi ildə trilyonlarla siqaret istehsal edir və hələ də sağlamlığa ziyan vuran «daha təhlükəsiz» adlandırdıqları «yeni» məhsulu irəli çəkir.

ÜST tütün sənayesi tərəfindən müdaxilə şəraitində siqaretçəkməyə qarşı mübarizədə elmi əsaslandırılmış tədbirlərin tətbiqində ölkələri dəstəkləyir. «Biz bütün ölkələri səhiyyə sahəsini bu ölümcül sferadan qorumağa çağırırıq», – deyə ÜST-nin təmsilçisi Rüdiger Kreç vurğulayıb.

Təşkilatdan onu da bildiriblər ki, orqanizmə yetirdiyi böyük zərərlə yanaşı, tütün və nikotin məmulatlarının istehsalı və istifadəsi ətraf mühitə də ziyan vurur, psixi sağlamlığı korlayır.

## Səhiyyə Nazirliyi: «Qrip əleyhinə peyvəndlərin Bakı üzrə paylanılması başa çatıb»

**Azərbaycanda qrip və digər respirator xəstəliklər üzrə epidemioloji vəziyyət Səhiyyə Nazirliyinin daim diqqət mərkəzindədir.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, bu məqsədlə ölkə ərazisinə qrip əleyhinə peyvəndlər gətirilib.

Vaksinlərin Bakı şəhəri üzrə paylanılması artıq başa çatıb. Məlumatda həmçinin bildirilir ki, hazırda peyvənd materiallarının ölkəmizin digər şəhər və rayonlarına çatdırılması davam edir və yaxın zamanlarda yekunlaşacaq.

Qeyd olunub ki, Azərbaycanda əhali arasında qrip əleyhinə peyvəndlənmə könüllü şəkildə aparılır. Qrip virusuna qarşı vaksinasiya xəstəliyin profilaktikası üçün əhəmiyyətlidir.

## Lənkəranda uşaqların peyvəndlənməsi ilə bağlı növbəti maarifləndirmə tədbiri keçirilib

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Azərbaycan Pediatriya Cəmiyyəti (AzPC) Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə birlikdə, Avropa İttifaqının maliyyə dəstəyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) dəstəyi ilə Lənkəran şəhərində uşaqların peyvəndlənməsi ilə bağlı növbəti maarifləndirmə tədbiri keçirilib.**



AZƏRTAC xəbər verir ki, silsilə şəklində müxtəlif regionlarda təşkil olunan «Mifə yox, elmi sübutlara inanaq: Peyvəndlə bağlı biliklərin artırılması üzrə təlim» adlı tədbir ÜST-nin «Avropa İmmunlaşdırma Gündəliyi — 2030» təşəbbüsünə uyğun olaraq «Heç bir uşağı peyvənddən kənarda qoymayaq» şüarı altında keçirilib.

Təlim tibb işçilərinin və valideynlərin peyvəndlənmə ilə bağlı məlumatlılığını artırmaq və peyvəndlərlə bağlı yanlış təsəvvürləri aradan qaldırmaq məqsədi daşıyıb.

Təlimə Lənkəran, Lerik, Yardımlı, Masallı və Astara rayonlarında fəaliyyət göstərən 100 nəfərə yaxın pediatr, tibb bacısı və qardaşı, həmçinin peyvənddən imtina edən valideynlər cəlb olunub.

Tədbirin birinci hissəsində AzPC-nin İdarə Heyətinin üzvləri və Səhiyyə Nazirliyinin mütəxəssis-ekspertləri Nigar Bayramova, Erkin Rəhimov və Əli Quliyev tərəfindən valideynlərlə peyvəndlə bağlı tərəddüdlər barəsində müzakirələr aparılıb və onların sualları cavablandırılıb. Görüşdə mütəxəssislər son dövrdə yayılan qızılca xəstəliyindən qorunmaq üçün uşaqların peyvənd olunması ilə bağlı valideynlərə çağırış ediblər.

Günün ikinci hissəsində isə AzPC-nin mütəxəssisləri tibb işçiləri üçün uşaq vaksinasiyası, peyvəndlə qarşısı alına bilən xəstəliklərin ağırlaşmaları, yanlış əks göstərişlər və s. mövzuları əhatə edən sessiyalar keçiriblər.

Tədbirin sonunda tibb işçiləri və valideynlər bu kimi canlı müzakirə əsasında təşkil olunan maarifləndirmə tədbirlərinin çox faydalı olduğunu bildiriblər.

Diqqətə çatdıraq ki, ilk maarifləndirmə tədbiri ötən ay Şirvan şəhərində 100-dən çox tibb işçisi və 50-yə yaxın valideynin iştirakı ilə baş tutmuşdu. Növbəti aylarda Bakı, Gəncə, Quba və Şəkidə eyni məzmunlu tədbirlərin təşkil olunması davam etdiriləcək.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### «Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 6.0

*Ünvan: A.Hüseyn küç., 69/71*
*Telefon: 455-44-79*

### «Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Y.Səfərov küç., 25/14*
*Telefon: 422-80-33*

### «Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu» PHŞ

Tibb bacısı (qardaşı) - 10.0
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 1.0
Anestezioloq - 1.0
Laborant - 2.0
Rentgen-texnik - 2.0

*Ünvan: E.Süleyman küç., 2514*
*Telefon: 421-50-91*

### «Elmi Tədqiqat Pediatriya İnstitutu» PHŞ

Rentgen-texnik - 1.0

*Ünvan: B.Bağırov küç., 15*
*Telefon: 595-21-00*

### 4 nömrəli Uşaq Somatik Sanatoriyası

Tibb bacısı (qardaşı) - 1.0 (fizioterapiya və tibbi bərpa kabineti)
Müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı - 1.0
Tibb bacısı (qardaşı) - 2.0
Tibbi-statistik - 1.0

*Ünvan: A.Sultanova küç., 28*
*Telefon: 595-38-28*

### «Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi» PHŞ

Laborant - 1.0

*Ünvan: Şərifzadə küç., 196*
*Telefon: 432-12-14*

### «Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu» PHŞ

Tibb bacısı (qardaşı) - 1.0 (Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsi)
Kiçik elmi işçi - 1.0 (Reproduktiv sağlamlıq üzrə elmi şöbə)
Kiçik elmi işçi - 1.0 (Mamalıq üzrə elmi şöbə)
Kiçik elmi işçi - 1.0 (Neonatologiya üzrə elmi şöbə)

*Ünvan: B.Ağayev küç., 7/18*
*Telefon: 510-09-52*

### «Respublika Psixiatriya Xəstəxanası» PHŞ

Tibb bacısı (qardaşı) - 10.0
Sosioloq - 2.0

*Ünvan: Ş.Hüseyn küç., 69/71*
*Telefon: 455-10-91*

### Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbulla bağlı müsabiqə davam edir

Ədliyyə Nazirliyi tibb xidmətinin kadr korpusunun müsabiqə və şəffaflıq əsasında hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi tədbirləri davam etdirilir.

Bununla əlaqədar «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən Azərbaycan Respublikasının vətəndaşları açıq müsabiqədə iştrak etmək üçün dəvət olunur.

Bildirilir ki, vakant ştat vahidləri tibb xidmətinin penitensiar müəssisələrdəki qurumlarında olmaqla aşağıdakı ixtisaslar üzrədir:

**Ali tibb təhsili üzrə:**

Həkim-terapevt
Həkim-cərrah
Şüa diaqnostikası üzrə həkim
Həkim-travmatoloq
Həkim-nevropatoloq
Həkim-laborant
Həkim-infeksionist
Həkim-endoskopist
Həkim-ftiziatr
Həkim-psixiatr

**Orta tibbi ixtisas təhsili üzrə:**

Feldşer
Laborant
Tibb bacısı (qardaşı)

***Müsabiqədə iştrak etmək üçün sənədlər Ədliyyə Nazirliyi Tibb baş idarəsinin inzibati binasında (Bakı Şəhəri, Nərimanov rayonu, Ceyhun Hacıbəyli küçəsi, 16 və 18) qəbul olunur. Həmçinin müraciətlər elektron poçt ünvanı (medical.department@justice.gov.az) vastəsilə də edilə bilər.***

***Əlavə məlumatları (012) 493-30-91 və (012) 493-06-50 nömrəli telefonlara zəng etməklə əldə etmək mümkündür.***

## Abunə kampaniyası davam edir!

**2024-cü ilin I yarısı üçün abunə kampaniyası dekabr ayının 31-dək davam edəcək. Bir nüsxənin 6 aylıq abunə haqqı 7 manat 50 qəpikdir. Abunə haqqı ya redaksiyada ödənməli, ya da qəzetin aşağıdakı bank hesabına köçürülməlidir:**

**«Tibb qəzeti» VÖEN 1400410961 İBAN AZ43İBAZ 38090019449323220204 h/h38090019449323220204**
**Bank: Beynəlxalq SKB-nin Mərkəzi filialı**
**Kod: 805722 AZ03NABZ 01350100000000002944**
**BANK (VÖEN) 9900001881**
**S W İ F T İBAZAZ 2 X**

Baş redaktor: N.MƏCİDOVA
Baş redaktorun müavini: S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi: Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 9300

# Beynəlxalq Vaxtından Əvvəl Doğulan Uşaqlar Günü qeyd edilib

**Son illərdə vaxtından əvvəl doğuşlarda artım müşahidə edilir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu və Azərbaycan Pediatrlar Assosiasiyasının birgə keçirdiyi konfransda danışılıb. Beynəlxalq Vaxtından Əvvəl Doğulan Uşaqlar Gününə həsr olunan tədbirdə yenidoğulmuşların qısa zaman çərçivəsində sağlamlıq problemlərinin aradan qaldırılması və reanimasiyasında müasir tibbi avadanlıqların effektiv rolundan bəhs edilib.

Azərbaycan Tibb Universitetinin dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə vaxtından əvvəl doğulmuş kritik az çəkili körpələrin reanimasiya və intensiv terapiyasının uğurla aparılmasının, standartlara uyğun yüksək tibbi xidmətin dövlətin demoqrafik göstəricilərinə də müsbət təsir göstərdiyini deyib. T.Tağı-zadə bir müddət öncə 600 qram bədən kütləsi ilə dünyaya gələn körpənin sağlam inkişafına nail olduqları üçün fədakar pediatr və neonatoloqlara dərin minnətdarlığını bildirib.

ÜST-nin tövsiyələrinə əsasən, diridoğulma hamiləliyin 22-ci həftəsindən hesablanır. Həmin vaxta qədər dölün məhv edilməsi abort kimi qəbul edilir. Əvvəllər isə bu göstərici 28-ci həftədən hesablanırdı, sonradan o daha 6 həftə irəli çəkilib. Bununla yanaşı, beynəlxalq qaydalara uyğun olaraq, yeni doğulan körpənin çəkisi 500 qram və ya artıq olmalı, ən azı 4 həyat əlamətindən – sərbəst nəfəs, ürək döyüntüsü, göbək bağının döyünməsi və əzələlərin sərbəst hərəkəti əlamətlərindən birinə malik olmalıdır. Həmin əlamətlər olmadıqda körpə ölü doğulmuş hesab edilir.



2014-cü il oktyabrın 26-da Azərbaycan Respublikası Nazirlər Kabineti ölkəmizdə «Diri doğulmanın beynəlxalq meyarları» haqqında Qərar qəbul edib və 2015-ci il yanvarın 1-dən etibarən bu meyarlar mülkiyyət formasından asılı olmayaraq ölkəmizin bütün tibb müəssisələrində tətbiq edilir.

Qeyd edək ki, Beynəlxalq Vaxtından Qabaq Doğulmuş Uşaqlar Günü 2009-cu ildə Yeni Doğulmuş Uşaqlara Nəzarət üzrə Avropa Fondunun təşəbbüsü ilə təsis edilib.

Fondun bildirdiyinə görə, hər il planetdə təxminən 15 milyon uşaq vaxtından əvvəl doğulur, başqa sözlə ifadə etsək, bu, orta hesabla hər 10 uşaqdan biri deməkdir. Həmin uşaqların bir milyondan çoxu doğulandan dərhal sonra ölür və bir çoxu müxtəlif növ fiziki və nevroloji qüsurlardan əziyyət çəkir, yaxud uyğunlaşma problemləri ilə üzləşir. Statistikaya görə, vaxtından əvvəl doğuş zamanı ölüm dünyadakı bütün yenidoğulmuşlar arasındakı ölüm hallarının, demək olar ki, yarısını təşkil edir.

Erkən uşaq doğulan ailələrdə körpələrin təkcə keyfiyyətli müalicəsinə və yalnız maddi deyil, həm də psixoloji dəstəyə ehtiyac duyulur. Vaxtından əvvəl doğuş problemi ilə ailə və cəmiyyətin rifah və inkişaf səviyyəsindən asılı olmayaraq üzləşmək mümkündür. Lakin təcrübə göstərir ki, vaxtından qabaq doğulanların xeyli hissəsi nəinki sağlam və gümrah, hətta görkəmli şəxsiyyətlərə çevrilirlər.

Bu təqvim gününün qeyd olunmasının məqsədi vaxtından əvvəl doğumun təhlükəsi və fəsadları, profilaktikası və həmiləliyin tam vaxtında başa çatdırılması haqqında ictimaiyyəti məlumatlandırmaqdan ibarətdir.




CAPRİFLOX® 500 mg Film Coated Tablet
Levofloxacin 500 mg
Geniş təsir spektri
Uroseptik effekt
Minimal inhibəedici konsentrasiya
Yüksək toxuma penetrasiyası
Problemin sadə həlli!
HB Co.LTD
Bİ Biofarma


ROLLY
arı südü,
vitaminlər
və minerallar
SAĞLAMLIQ
FORMULU


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının
Respublikamızda yeganə
distribyutoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az